**“Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı”nda nəzərdə tutulan tədbirlərin Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən 2022-ci il ərzində icrası barədə**

**M Ə L U M A T**

**4.1.6-cı yarımbənd üzrə (Xidmət sektorunda işləyən miqrantlarla bağlı ölkədaxili vəziyyətin təhlili və onların insan alverinin qurbanına çevrilməsi risklərinin qarşısının alınması məqsədilə qanunvericiliyin təkmilləşdirilməsi ilə əlaqədar təkliflər hazırlanması):**

Bu bəndin icrası ilə bağlı Xidmət tərəfindən hazırlanmış “Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 3 sentyabr tarixli 131 nömrəli Qərarı ilə təsdiq edilmiş “İnsan alveri qurbanlarının müəyyən edilməsi Qaydaları (indikatorları)”nda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı” layihəsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 1 dekabr tarixli 377 nömrəli Qərarı, “Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 10 sentyabr tarixli 252 nömrəli Qərarı ilə təsdiq edilmiş “İnsan alveri qurbanlarının repatriasiya Qaydaları”nda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı” layihəsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 1 dekabr tarixli 378 nömrəli Qərarı, “Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 11 avqust tarixli 123 nömrəli Qərarı ilə təsdiq edilmiş “İnsan alveri qurbanları ilə bağlı Milli İstiqamətləndirmə Mexanizmi Qaydaları”nda dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı” layihəsi isə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 19 dekabr tarixli 445 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

**4.1.9-cu yarımbənd üzrə (İnsan alveri qurbanları ilə bağlı Milli İstiqamətləndirmə Mexanizminin daha səmərəli həyata keçirilməsi, insan alverinə qarşı mübarizədə koordinasiyanın gücləndirilməsi məqsədilə müvafiq idarələrarası komissiyanın və İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinator yanında İşçi Qrupun hüquqi statusuna yenidən baxılması, ixtisaslaşmış qeyri-hökumət təşkilatları və beynəlxalq təşkilatlar cəlb edilməklə tərkibinin yenidən formalaşdırılması):**

Qeyd olunan yarımbəndin icrası məqsədilə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən hazırlanmış və Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2022-ci il 26 fevral tarixli 4969/29644aid (2021) nömrəli dərkənarı ilə Xidmətə daxil olmuş normativ hüquqi akt layihələrinə Dövlət Miqrasiya Xidmətinin münasibəti 2022-ci il 5 mart tarixli 02/416 nömrəli məktubla Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunmuşdur.

**4.2.1-ci yarımbənd üzrə (İnsan alveri probleminin mahiyyəti, onun qarşısının alınması barədə tədris-metodik vəsaitlərin və maarifləndirici materialların hazırlanması və yayımlanması):**

Hesabat dövrü ərzində Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin İnsan alverinə qarşı mübarizə baş idarəsi tərəfindən Dövlət Miqrasiya Xidmətinə təqdim olunmuş insan alveri probleminin mahiyyəti, onun qarşısının alınması barədə maarifləndirici materiallar əcnəbi və vətəndaşlığı olmayan şəxslərə təqdim olunmuş və hazırda bu işlər fasiləsiz olaraq davam etdirilir.

Bununla yanaşı, Xidmət tərəfindən Azərbaycan Respublikasında olan əcnəbilərin hüquq və vəzifələri, insan alveri riskləri və əcnəbilərin müraciət edəcəkləri yerlər və əlaqə vasitələri haqqında maarifləndirmə xarakterli kapslar hazırlanaraq sosial media hesablarında işıqlandırılmışdır.

**4.2.4-cü yarımbənd üzrə (Qanunsuz miqrasiyanın, ölkə ərazisindən insan alveri məqsədilə tranzit kimi istifadə edilməsinin, insan alverinin bütün formalarının qarşısının alınması işinin daha da gücləndirilməsi, bu sahədə fəaliyyət göstərən dövlət qurumları arasında koordinasiyanın təkmilləşdirilməsi, insan alveri qurbanlarının və potensial qurbanların müəyyən edilməsi məqsədilə birgə fəaliyyətin və monitorinqlərin davam etdirilməsi):**

Hesabat dövrü ərzində insan alveri üzrə əlaqələndirici məsul şəxs Miqrasiya nəzarəti baş idarəsinin Miqrasiya rejiminə nəzarət şöbəsinin rəisi, kiçik miqrasiya xidməti müşaviri Rüfət İbrahimov digər dövlət orqanları ilə əlaqələndirmənin təmin edilməsi istiqamətində tədbirlərə rəhbərlik etmişdir. Həmçinin, hesabat dövrü ərzində Daxili İşlər Nazirliyinin İnsan alverinə qarşı mübarizə baş idarəsi, Baş pasport, qeydiyyat və miqrasiya idarəsi, Dövlət Təhlükəsizliyi Xidməti, Dövlət Vergi Xidməti və digər tərəfdaş qurumlarla işgüzar münasibətlərin qurulması təmin edilmişdir.

Avropa Şurasının İnsan Alverinə Qarşı Mübarizə Üzrə Ekspertlər Qrupu – GRETA üzvlərinin 2022-ci ilin 5-9 sentyabr tarixlərində ölkəmizə səfəri çərçivəsində 7 sentyabr 2022-ci il tarixdə Dövlət Miqrasiya Xidmətinin Bakı şəhərində yerləşən Qanunsuz miqrantların saxlanılması mərkəzinə səfərinin təşkil edilməsi istiqamətində Xidmət tərəfindən müvafiq tədbirlər görülmüş və səfər çərçivəsində ekspertlər tərəfindən ünvanlanan suallar Xidmət əməkdaşları tərəfindən cavablandırılmışdır. Eyni zamanda, GRETA üzvləri ilə birgə Dövlət Təhlükəsizliyi Xidməti, Dövlət Sərhəd Xidməti, Dövlət Miqrasiya Xidməti və Daxili İşlər Nazirliyinin Polis Akademiyasının əməkdaşlarının iştirak etdiyi 06.09.2022-ci il tarixdə keçirilmiş görüşdə Xidmətin aidiyyəti struktur bölmələrinin əməkdaşlarının iştirakı təmin olunmuşdur.

**4.2.9-cu yarımbənd üzrə (İnsan alverinə qarşı mübarizə ilə əlaqədar xarici ölkələrdə həbs olunan, xarici ölkə hüdudlarından kənara çıxarılan, insan alverinin qurbanı olan (insan alverindən zərər çəkmiş və ya zərər çəkməsi ehtimal olunan) Azərbaycan Respublikası vətəndaşları barədə müvafiq məlumatların əldə olunması və konfidensiallıq qorunmaqla xüsusi polis qurumuna təqdim edilməsi):**

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi vasitəsilə Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə sığınacaq statusu əldə etmək üçün müraciət etmələri, eləcə də həmin ölkələrdən inzibati qaydada çıxarılmaları və ya deportasiya olunmaları barədə (həmçinin müstəsna hallarda insan alverinin qurbanı olmaları ilə bağlı) mütəmadi olaraq məlumatlar daxil olmaqdadır.

2022-ci il ərzində 1 halda Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1 noyabr 2022-ci il tarixli 26515 nömrəli dərkənarı əsasında Azərbaycan Respublikası Xarici İşlər Nazirliyindən Xidmətə daxil olmuş 24 oktyabr 2022-ci il tarixli 2/15-10742/05/22 nömrəli məktubda 2 nəfər Azərbaycan Respublikası vətəndaşı – Mikayılov Əbülfəz Adşirin oğlu və Ağayev Rauf Tofiq oğlunun Yunanıstanda məhkəmə tərəfindən insan alveri ilə məşğul olma və digər qanunsuz əməllər üzrə təqsirli bilinərək 20 il müddətinə azadlıqdan məhrum olunduqları barədə məlumat verilmişdir (*Azərbaycan Respublikasının Nazirlər Kabinetinin yuxarıda qeyd olunan dərkənarında o cümlədən Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin də adı qeyd olunmuşdur*).

**4.2.10-cu yarımbənd üzrə (Respublika ərazisində turizmin inkişafı və genişlənməsi ilə əlaqədar müəyyən şəxslərin insan alverinin qurbanı olmaq riskinin qarşısının alınması və belə şəxslərin mənafelərinin qorunması məqsədilə qabaqlayıcı tədbirlər hazırlanması):**

2020-ci ilin əvvəlindən etibarən dünyada yeni koronavirus (COVİD-19) pandemiyasının təsiri insan yerdəyişməsinin kəskin aşağı düşməsinə səbəb olmuş və miqrasiya proseslərinə mənfi təsir etmişdir. COVİD-19 daha çox insan təması ilə yayılan

infeksiya olduğundan digər dövlətlərdə olduğu kimi bu virusdan qorunmaq üçün Azərbaycan Respublikasında da sərhədlərin bağlanılması, səyahət və hərəkət məhdudiyyətləri, sosial məsafə qaydaları tətbiq edilmişdir ki, bu da ölkəyə səfər edən əcnəbilərin sayının azalmasına səbəb olmuşdur.

Pandemiya, həmçinin miqrasiya prosesləri üçün yeni situasiya və çağırışlar yaratmışdır. Azərbaycan Respublikasında COVİD-19 pandemiyası dövründə miqrasiya idarəçiliyi çeviklik, şəffaflıq, səmərəlilik və insan hüquq və azadlıqlarının müdafiəsi prinsipləri və aidiyyəti beynəlxalq təşkilatların tövsiyələri nəzərə alınmaqla təşkil edilmişdir.

Qeyd edilməlidir ki, fasiləsiz fəaliyyət göstərən Çağrı Mərkəzinin - (919 telefon nömrəsi) 3 dildə - Azərbaycan, ingilis və rus dillərində fəaliyyəti, Xidmətin rəsmi internet səhifəsinin “Onlayn bələdçi” xidməti, “WhatsApp” əlaqə vasitəsi vətəndaşların, eləcə də əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin miqrasiya sahəsində maarifləndirilməsi və lazımi informasiyaları əldə etmək hüquqlarının təmini baxımından vacib əhəmiyyətə malikdir.

Avropa Şurasının İnsan Alverinə Qarşı Mübarizə Üzrə Ekspertlər Qrupu – GRETA üzvlərinin 2022-ci ilin 5-9 sentyabr tarixlərində ölkəmizə səfəri çərçivəsində 7 sentyabr 2022-ci il tarixdə Dövlət Miqrasiya Xidmətinin Bakı şəhərində yerləşən Qanunsuz miqrantların saxlanılması mərkəzinə təşkil olunmuş səfəri zamanı insan alverinin yaratdığı təhlükələri və müvafiq dövlət orqanları barədə məlumatları özündə əks etdirən və Xidmət tərəfindən ərəb, fars, urdu, ingilis, rus və Azərbaycan dillərində hazırlanmış broşürlar, həmçinin əməkdaşlara keçilən təlimlərdə istifadə olunan təlim materiallarının surətləri görüşlər zamanı ekspertlərə təqdim edilmişdir. Gələcəkdə qeyd olunan mövzuda broşürların və digər maarifləndirici materialların mütəmadi olaraq çapının davam etdirilməsi və hədəf qrupları arasında paylanılması istiqamətində görülən tədbirlərin davam etdirilməsi nəzərdə tutulmuşdur.

Respublika ərazisində turizmin inkişafı və genişlənməsi ilə əlaqədar müəyyən şəxslərin insan alverinin qurbanı olmaq riskinin qarşısının alınması və belə şəxslərin mənafelərinin qorunması, həmçinin bu sahədə tərəfdaşlığın gücləndirilməsi məqsədilə 28 oktyabr 2022-ci il tarixdə Bakı şəhərində “Təmiz Dünya” Qadınlara Yardım İctimai Birliyi tərəfindən təşkil olunmuş dəyirmi masada Xidmət əməkdaşının iştirakı təmin edilmişdir.

**4.3.3-cü yarımbənd üzrə (İnsan alveri və məcburi əmək cinayətləri ilə mübarizədə hüquq-mühafizə orqanları, o cümlədən məcburi əməklə mübarizə sahəsində fəaliyyət göstərən digər dövlət orqanları arasında əməkdaşlığın, həmin orqanlarla məhkəmələrin qarşılıqlı əlaqələrinin gücləndirilməsi, səmərəli məlumat və təcrübə mübadiləsinin təmin edilməsi, mütəmadi görüşlər və birgə təlimlər keçirilməsi):**

“Bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının qorunması haqqında” Beynəlxalq Konvensiya üzrə Azərbaycan Respublikasının virtual formatda keçirilmiş üçüncü dövri məruzəsinin nəticəsi olaraq BMT-nin Bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının qorunması üzrə Komitə tərəfindən ölkəmiz üzrə qəbul edilmiş Yekun Müşahidələrin və ya Tövsiyələrin ölkəmizin aidiyyəti dövlət qurumları tərəfindən nəzərdən keçirilməsi və icrasının təmin edilməsi ilə bağlı müvafiq göstəriş verilməsi məqsədilə Xidmət tərəfində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə 17.02.2022-ci il tarixli 02/271 nömrəli məktub ünvanlanmış və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23.02.2022-ci il tarixli 4682 nömrəli dərkənarı əsasında Tövsiyələrin aidiyyəti dövlət qurumları tərəfindən nəzərə alınıb, müvafiq qaydada baxılması tapşırığı verilmişdir. Həmçinin qeyd olunan tövsiyələrin aidiyyəti üzrə icrasının təmin edilməsi məqsədilə Xidmət tərəfindən Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatına 17.02.2022-ci il tarixli 02/270 nömrəli, Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinə isə 17.02.2022-ci il tarixli 02/272 nömrəli məktublar ünvanlanmışdır.

Dövlət Miqrasiya Xidməti və Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycan Respublikasındakı Nümayəndəliyinin birgə təşkilatçılığı ilə “Miqrasiya Məktəbi - 4” layihəsinə

start verilmiş və layihə ilə bağlı aidiyyəti üzrə təşkilati tədbirlər həyata keçirilmişdir. 6 ay davam edən layihənin əsas məqsədi gələcəkdə müxtəlif sahələr üzrə fəaliyyət göstərəcək gənclərin miqrasiya ilə bağlı biliklərini artırmaq, onlarda bu sahəyə maraq oyatmaq, peşəkar vərdişlər aşılamaq və dövlət idarəçiliyinə dair məlumatlandırmaq olmuşdur.

Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin Miqrant qaçaqçılığına qarşı mübarizə üzrə İşçi qrupunun 27-28 iyun 2022-ci il tarixlərdə Avstriya Respublikasının Vyana şəhərində hibrid formatda keçirilən 9-cu sessiyasında Dövlət Miqrasiya Xidməti əməkdaşlarının nümayəndə qismində iştiraklarının təmin olunmaları ilə əlaqədar müvafiq tədbirlər görülmüşdür.

"Azərbaycanla Yerdəyişmə üzrə Tərəfdaşlığın həyata keçirilməsinə dəstək (MOBİLAZE-2)" layihəsinin 3-cü Komponenti çərçivəsində 9 iyun 2022-ci il tarixdə Dövlət Miqrasiya Xidmətinin inzibati binasında yerləşən Təlim Mərkəzində keçirilən "Miqrantların hüquqlarının müdafiəsi sahəsində mövcud beynəlxalq və milli çərçivə: monitorinq mexanizmləri, tənzimlənməyən miqrantların saxlanılması prosedurları üzrə" təlimdə Xidmət əməkdaşı iştirak etmişdir.

Dövlət Miqrasiya Xidmətinin dəstəyi ilə 26 avqust 2022-ci il tarixdə "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyi və "Azərbaycan Uşaqları" İctimai Birliyinin rəhbərliyi tərəfindən Xidmətin Qanunsuz miqrantların saxlanılması mərkəzində monitorinq aparılması istiqamətində zəruri olan təşkilati tədbirlər görülmüşdür.

Bununla yanaşı, hesabat dövrü ərzində miqrasiya orqanlarında çalışan 128 işçi 3 halda "İnsan alveri və məcburi əmək riskləri" və "İnsan alverinə qarşı mübarizə və qurbanların müəyyən edilməsi indikatorları" istiqamətlərində təlimlərə cəlb olunmuşdur.

**4.3.4-cü yarımbənd üzrə (İnsan alveri ilə bağlı transmilli mütəşəkkil cinayətkarlığın qarşısının alınması sahəsində fəaliyyətin səmərəsinin artırılması, o cümlədən transmilli mütəşəkkil cinayətkar qrupların respublikadakı mümkün əlaqələrinin müəyyən edilməsi istiqamətində tədbirlərin gücləndirilməsi):**

İnsan alveri ilə bağlı transmilli mütəşəkkil cinayətkarlığın qarşısının alınması və aradan qaldırılması istiqamətində aidiyyəti dövlət orqanları ilə birgə Dövlət Miqrasiya Xidməti tərəfindən tədbirlər gücləndirilmişdir. Bununla bağlı məlumat olduqda, aidiyyəti üzrə dövlət orqanlarına göndərilir.

Hesabat dövrü ərzində Daxili İşlər Nazirliyinin İnsan alverinə qarşı mübarizə baş idarəsi və Baş pasport, qeydiyyat və miqrasiya idarəsi, Dövlət Təhlükəsizliyi Xidməti, Dövlət Vergi Xidməti və digər tərəfdaş qurumlarla işgüzar münasibətlərin qurulması təmin edilmişdir.

**4.3.5-ci yarımbənd üzrə (Respublika daxilində insan alveri və məcburi əmək qurbanlarının, o cümlədən uşaqların, əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin müəyyənləşdirilməsi istiqamətində səylərin davam etdirilməsi, respublika daxili insan alveri və məcburi əmək qurbanlarına da xüsusi həssas yanaşılması, insanların istismarı hallarına yol verən fiziki, vəzifəli və hüquqi şəxslər barəsində müvafiq məsuliyyət tədbirlərinin görülməsi):**

15 mart 2022-ci il tarixdə Bakı şəhərində keçirilmiş tədbir zamanı Azərbaycan, Türkiyə və İran ərazisindən istifadə etməklə Avropa və Amerika ölkələrinə getmək istəyən qanunsuz miqrasiya kanalı aşkar edilmişdir. Qeyd olunan məsələ ilə bağlı 39 nəfərin ölkə ərazisindən inzibati qaydada kənara çıxarılması təmin olunmuşdur. Lakin, insan alveri əlamətləri aşkar olunmadığı üçün Daxili İşlər Nazirliyinin aidiyyəti qurumuna məktub ünvanlanmamışdır.

Qanunsuz miqrasiyaya qarşı keçirilmiş tədbirlər zamanı əldə olunmuş şifahi məlumatlara əsasən Filippin Respublikası vətəndaşları və bir qrup Afrika mənşəli əcnəbinin Bakı şəhərində pul qarşılığında cinsi istismara cəlb edilməsi barədə 18.10.2022-ci il tarixdə Daxili İşlər Nazirliyinin aidiyyəti qurumuna məktub ünvanlanmışdır.

Qanunsuz miqrasiyaya qarşı keçirilmiş tədbirlər zamanı əldə olunmuş yazılı məlumatlara əsasən aldatma yolu ilə Azərbaycan Respublikasına gətirilmiş Pakistan İslam

Respublikasının vətəndaşlarının sərhədkeçmə sənədlərini əldə edən Hindistan Respublikasının vətəndaşı Ravi Kumarın onların zəiflik vəziyyətindən sui-istifadə etməklə sənədləri özlərinə geri qaytarmaqdan imtina etdiyi müəyyən edilmiş və 20.10.2022-ci il tarixdə aidiyyəti quruma məktub göndərilmiş, İnsan alverinə qarşı mübarizə baş idarəsindən Dövlət Miqrasiya Xidmətinə daxil olmuş məktubda toplanmış materialların insan alveri xüsusatları üzrə prosessual qərar qəbul olunması üçün DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə Baş idarəsinin İstintaq və təhqiqat idarəsinə göndərildiyi bildirilmişdir.

Qanunsuz miqrasiyaya qarşı keçirilmiş tədbirlər zamanı saxlanılmış Pakistan İslam Respublikası vətəndaşları Muhammad Amjad, Hussain Abid və Ramzan Muhammadın özünü Abid kimi təqdim edən həmyerliləri tərəfindən aldadılaraq Azərbaycana gətirildikləri, sərhədkeçmə sənədlərinin onlardan alındığı müəyyən edilmiş və 16.11.2022-ci il tarixdə Daxili İşlər Nazirliyinin aidiyyəti qurumuna məktub ünvanlanmışdır. İnsan alverinə qarşı mübarizə baş idarəsindən Dövlət Miqrasiya Xidmətinə daxil olmuş məktubda isə toplanmış materialların insan alveri xüsusatları üzrə prosessual qərar qəbul olunması üçün DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə Baş idarəsinin İstintaq və təhqiqat idarəsinə göndərildiyi bildirilmişdir.

9 nəfər Şri-Lanka Respublikası vətəndaşının həmyerliləri tərəfindən Azərbaycan Respublikasında təhsil almaq, yüksək gəlirli iş və digər şirniklәndirici vədlərlə aldadılması formasında qanunsuz miqrasiyanın təşkilinə əsaslı şübhələr olduğu üçün Azərbaycan Respublikasının Baş Prokurorluğuna 03.12.2022-ci il tarixli 06/2231 nömrəli məktub ünvanlanmışdır.

Həmçinin, Türkmənistan vətəndaşı Batyr Rejepovun Azərbaycan Respublikasının vətəndaşı Elçin Camalov tərəfindən əcnəbinin əməyinin istismarına dair əsaslı şübhələr olduğu üçün 22.11.2022-ci il tarixdə aidiyyəti quruma məktub göndərilmiş və İnsan alverinə qarşı mübarizə baş idarəsindən Dövlət Miqrasiya Xidmətinə daxil olmuş məktubda toplanmış materialların insan alveri xüsusatları üzrə prosessual qərar qəbul olunması üçün DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə Baş idarəsinin İstintaq və təhqiqat idarəsinə göndərildiyi bildirilmişdir.

**4.3.6-cı yarımbənd üzrə (Dilənçiliklə məşğul olan uşaqlarla xüsusi işin aparılması, körpə uşaqların digər şəxslərin yanında dilənçilik fəaliyyətinə cəlb edilməklə dilənçiliklə məşğul olmaq hallarına və belə fəaliyyətlərin təşkilinə qarşı mübarizənin gücləndirilməsi, belə uşaqların valideynləri (onları əvəz edən şəxslər) ilə xüsusi söhbətlərin aparılması, onların valideynlərinə (onları əvəz edən şəxslərə) qarşı tədbirlərin görülməsi):**

Aidiyyəti dövlət orqanları ilə birgə Dövlət Miqrasiya Xidməti tərəfindən keçirilən tədbirlər zamanı dilənçiliklə məşğul olmaq halları və belə fəaliyyətlərin təşkilinə qarşı mübarizə, belə uşaqların valideynləri (onları əvəz edən şəxslər) ilə söhbətlərin aparılması işinə xüsusi önəm verilir.

Hesabat dövrü ərzində regionlarda həyata keçirilən tədbirlər zamanı əcnəbi və vətəndaşlığı olmayan şəxslər tərəfindən körpə uşaqların dilənçilik fəaliyyətinə cəlb edilməsi halları müəyyən edilməmişdir.

**4.4.8-ci yarımbənd üzrə (Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəlikləri və konsulluqları tərəfindən insan alverindən zərər çəkmiş və ya zərər çəkməsi ehtimal olunan Azərbaycan Respublikası vətəndaşlarının hüquq və mənafelərinin müdafiə olunması):**

Dövlət Miqrasiya Xidməti xarici ölkələrdə yaşayan Azərbaycan Respublikası vətəndaşlarının hüquq və mənafelərinin təmin edilməsi üzrə aidiyyəti dövlət orqanları ilə birlikdə xarici dövlətlərin müvafiq orqanları ilə əməkdaşlıq edir.

Lakin cari il ərzində insan alverindən zərər çəkmiş və ya zərər çəkməsi ehtimal olunan vətəndaşlar ilə bağlı Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəlikləri və konsulluqlarından, eləcə də Azərbaycan Respublikası vətəndaşlarından müraciət daxil olmamışdır.

**4.4.9-cu yarımbənd üzrə (Xarici ölkələrdə insan alverindən zərər çəkmiş və ya zərər çəkməsi ehtimal olunan Azərbaycan Respublikası vətəndaşlarının Azərbaycan Respublikasına repatriasiyasının təmin olunması və digər zəruri ehtiyaclarının qarşılanması):**

Cari il ərzində Azərbaycan Respublikası tərəfindən imzalanmış readmissiya sazişləri çərçivəsində ölkəyə ümumilikdə 362 şəxsin readmissiyası həyata keçirilmişdir. Ölkəyə readmissiya edilən şəxslərlə keçirilən müsahibələr zamanı onların müvafiq ehtiyacları öyrənilərək Reinteqrasiya İşçi Qrupu çərçivəsində 20 şəxsin yaşayış və ya iş yeri ilə təmin edilməsi barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə 9 məktub, 10 şəxsin müalicəsi ilə bağlı TƏBİB-ə 6 məktub, 6 şəxsin təhsili ilə əlaqədar Elm və Təhsil Nazilriyinə 4 məktub göndərilmişdir.

Hesabat dövrü ərzində ölkəyə readmissiya edilən şəxslər arasında insan alverindən zərər çəkmiş və ya zərər çəkməsi ehtimal olunanlar aşkar edilməmişdir.

**4.5.8-ci yarımbənd üzrə (Şəxsiyyəti təsdiq edən sənədi olmayan uşaqların müvafiq sənədlərlə təmin edilməsi üçün tədbirlərin davam etdirilməsi):**

Dövlət Miqrasiya Xidməti tərəfindən Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının qoşulduğu “10 ilə vətəndaşsızlığa son” kampaniyası çərçivəsində ölkə ərazisində yaşayan və şəxsiyyəti təsdiq edən hər hansı sənədi olmayan, o cümlədən vətəndaşsızlıq vəziyyətində olan şəxslərin müəyyən edilməsi və onların sənədləşdirilməsi ilə bağlı işlər 2022-ci il ərzində davam etdirilmişdir.

Belə ki, Xidmətin Bakı şəhər regional miqrasiya baş idarəsi, 7 regional miqrasiya idarəsi və “Asan xidmət” mərkəzlərindəki miqrasiya şöbələri vasitəsilə şəxsiyyətini təsdiq edən sənədi olmayan uşaqların Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətin müəyyən edilməsi ilə bağlı müraciətləri qəbul edilmiş, nəticədə isə Dövlət Miqrasiya Xidməti tərəfindən mənsubiyyəti tanınmış uşaqlar daxili işlər orqanlarından Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi əldə etmişlər.

Hesabat dövrü ərzində insan alverindən zərər çəkmiş və ya zərər çəkməsi ehtimal olunan uşaqlarla bağlı sorğu daxil olmamışdır.

**4.6.3-cü yarımbənd üzrə (İnsan alverinə qarşı mübarizənin səmərəliliyinin artırılması məqsədilə digər dövlətlərlə, xüsusən insan alveri ilə bağlı məsələlərdə Azərbaycan Respublikasına münasibətdə təyinat və mənbə ölkələrinin aidiyyəti dövlət və qeyri-dövlət qurumları ilə, bu sahədə fəaliyyət göstərən beynəlxalq təşkilatlarla əməkdaşlığın gücləndirilməsi):**

20 aprel 2022-ci il tarixdə Budapeşt Prosesi çərçivəsində Hüquq-mühafizə İşçilərinin İcmasının ilk görüşündə Xidmət əməkdaşlarının iştirakı təmin olunmuşdur. Təşəbbüsün əsas məqsədi İpək Yolu regionundan Avropaya qanunsuz miqrasiya və onunla əlaqədar cinayətlərin (insan alveri, miqrant qaçaqçılığı və s.) qarşısının alınmasında hüquq-mühafizə orqanlarının əməkdaşlığının gücləndirilməsindən ibarət olmuşdur.

18-20 may 2022-ci il tarixlərində Budapeşt Prosesi çərçivəsində Şimali Makedoniyada əsas məqsədi uzun, orta və qısa müddətli addımların müzakirə olunmasından ibarət olan COLEP təşəbbüsünün ikinci görüşü və Cənub-Şərqi Avropa və İpək yolu işçi qruplarının birgə keçirilmiş görüşündə Xidmət əməkdaşının iştirakı təmin olunmuşdur.

Həmçinin, ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin maliyyə dəstəyi ilə Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT) tərəfindən həyata keçirilən “İnsan alverinə qarşı Mübarizə üzrə Fəaliyyət” layihəsi çərçivəsində müvafiq sahədə qurumlararası koordinasiya ilə bağlı

təcrübənin öyrənilməsi məqsədilə aidiyyəti dövlət qurumlarının nümayəndələri üçün 27 iyul-3 avqust 2022-ci il tarixlərində Özbəkistana, 5-12 noyabr 2022-ci il tarixlərində isə ABŞ-a edilmiş təlim səfərlərində Xidmət əməkdaşının iştirakı təmin edilmişdir.

23-27 may 2022-ci il tarixlərdə Avstriya Respublikasının Vyana şəhərində virtual formada keçirilmiş Birləşmiş Millətlər Təşkilatının Transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyasına tərəf dövlətlərin Konfransının Beynəlxalq Əməkdaşlıq üzrə İşçi qrupunun 13-cü və Texniki Əməkdaşlıq üzrə ekspertlərin İşçi qrupunun 13-cü sessiyalarında müzakirə olunacaq məsələlərə dair Xidmətin mövqeyi qarşı tərəfə təqdim olunmuşdur.

ABŞ Dövlət Departamentinin "2021-ci il üzrə ölkələrin insan hüquqları təcrübələri"nə dair növbəti illik hesabatının Azərbaycan Respublikası ilə bağlı hissəsinə dair Dövlət Miqrasiya Xidmətinin fəaliyyət istiqamətləri üzrə müvafiq məlumatlar hazırlanaraq aidiyyəti üzrə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə göndərilmişdir.

**4.6.6-cı yarımbənd üzrə (İnsan alveri və məcburi əməklə mübarizədə beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi, ikitərəfli və çoxtərəfli əlaqələrin gücləndirilməsi, məlumat mübadiləsinin operativliyi üçün əlaqələndiricilərin müəyyən olunması):**

21 iyun 2022-ci il tarixdə "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında qanunsuz miqrasiyaya qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş" imzalanmış, bu da insan alveri və məcburi əməklə mübarizədə əməkdaşlığın inkişafı, innovativ təşəbbüslərin və layihələrin reallaşdırılması üçün yeni imkanlar və fürsətlər yaradır.

Budapeşt Prosesi çərçivəsində 2022-ci ildə yaradılmış və əsas məqsədi İpək Yolu regionundan Avropaya qanunsuz miqrasiya və onunla əlaqədar cinayətlərin (insan alveri, miqrant qaçaqçılığı və s.) qarşısının alınmasında hüquq-mühafizə orqanlarının əməkdaşlığının gücləndirilməsindən ibarət olan Hüquq-mühafizə İşçilərinin İcması (COLEP) təşəbbüsünə qoşulmaqla bağlı tədbirlər görülmüşdür.

ABŞ Dövlət Departamentinin insan alveri sahəsində 188 ölkəni əhatə edən 2022-ci il üzrə növbəti illik hesabatı Xidmət tərəfindən təhlil olunmuş və məsələyə dair aidiyyəti üzrə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə müvafiq məktub ünvanlanmışdır. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 03.08.2022-ci il tarixli 20325 nömrəli dərkənarı ilə daxil olmuş ABŞ Dövlət Departamentinin insan alverinə qarşı mübarizəyə dair növbəti illik hesabatında Azərbaycan Respublikası üçün təqdim edilmiş 11 tövsiyənin aidiyyəti bəndlərinin icrası ilə bağlı cari ilin sonunadək Xidmət tərəfindən müvafiq tədbirlərin görülməsi və nəticəsi barədə məlumatların Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə təqdim edilməsi nəzərdə tutulmuşdur.

**4.7.1-ci yarımbənd üzrə (Hüquq-mühafizə orqanlarının, bu sahədə fəaliyyət göstərən digər dövlət qurumlarının və Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin əməkdaşları, hakimlər və məhkəmə aparatı işçiləri, habelə ölkə ərazisində fəaliyyət göstərən turizm şirkətlərinin nümayəndələri üçün insan alverinin və məcburi əməyin qurbanı olan şəxslərin, o cümlədən miqrantların müəyyən edilməsi, onların müdafiəsi, bu növ işlərin araşdırılması və baxılması zamanı məsələyə daha çox qurbanın müdafiəsi baxımından yanaşılması mövzularında təlimlər, maarifləndirmə tədbirlərinin keçirilməsi):**

21.04.2022-ci il tarixdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin mütəxəssisi tərəfindən "İnsan alveri və ondan müdafiə" və "Məcburi əmək riskləri" mövzularında keçirilən onlayn təlimdə Xidmət əməkdaşları iştirak etmişdirlər.

**4.7.2-ci yarımbənd üzrə (İnsan alverinə qarşı mübarizəyə dair təlimlərin proqramına qurbanların hüquqlarının müdafiəsi, müxtəlif xidmətlər göstərməyə məcbur edilmə və insanların istismar edilməsinin digər formaları, insan alverinin

**gender xüsusiyyətləri, uşaqlara xas aspektləri, uşaqların internet vasitəsilə cinsi istismara və ya zorakılığa cəlb olunması ilə bağlı mövzuların daxil edilməsi):**

Hər il olduğu kimi cari il ərzində də bu sahədə miqrasiya orqanlarında təlimlərin keçirilməsi davam etdirilmişdir.

Bununla bağlı, 2022-ci il ərzində miqrasiya orqanlarının əməkdaşları üçün “İnsan alveri və ondan müdafiə”, “İnsan alverinə qarşı mübarizə və qurbanların müəyyən edilməsi indikatorları”, “Məcburi əmək riskləri”, “Həssas miqrant qrupları və insan alverinə qarşı mübarizədə davamlı həllər”, “Uşaq hüquqları” və “İnsan hüquqları” mövzusunda təlimlər keçirilmişdir. Təlimlərə Xidmətin ümumilikdə 139 əməkdaşı cəlb edilmişdir.

**4.7.3-cü yarımbənd üzrə (Effektiv sərhəd nəzarəti tədbirləri vasitəsilə insan alverinin müxtəlif formalarının, təqsirli və zərərçəkmiş şəxslərin müəyyən edilməsi, preventiv hazırlığın gücləndirilməsi):**

Hazırda Dövlət Miqrasiya Xidmətinin Bakı şəhər regional miqrasiya baş idarəsinin və regional miqrasiya idarələrinin tabeliyində 4 sərhəd buraxılış məntəqələrində miqrasiya şöbəsi (bölməsi) fəaliyyət göstərir. Həmin şöbə (bölmə) vasitəsilə Dövlət Sərhəd Xidmətinin aidiyyəti struktur bölmələri ilə effektiv sərhəd nəzarəti tədbirlərinin həyata keçirilməsi üçün işin əlaqələndirilməsi təmin olunur. Eyni zamanda, qarşılıqlı fəaliyyət zamanı insan alverinin qurbanında təqsirləndirilən və ya zərərçəkmiş şəxslərin müəyyən edilməsi məsələləri diqqətdə saxlanılır.

Hesabat dövründə insan alverindən zərər çəkmiş şəxslərlə bağlı Dövlət Sərhəd Xidmətinin struktur bölmələrindən, eyni zamanda şəxslərdən müraciət daxil olmamışdır.

**4.7.4-cü yarımbənd üzrə (İnsan alveri qurbanlarının hüquqi yardımdan səmərəli istifadə etmələrinin dəstəklənməsi üçün müvafiq dövlət qurumlarının vəzifəli şəxslərinin insan alverinə qarşı mübarizə sahəsində bilik və bacarıqlarının artırılması, habelə bu məqsədlə keçirilən təlim-tədris (ixtisaslaşmış peşə hazırlığı) proqramlarına insan alveri qurbanlarının kompensasiya almaq hüququnun təmin olunması mövzusunun da daxil edilməsi):**

Cari il ərzində bununla bağlı keçirilmiş təlimlərdə Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsman) Aparatının və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin mütəxəssislərinin iştirakı təmin olunmuşdur.

Təlimlər barədə məlumatlar 4.7.2-ci yarımbənddə qeyd olunmuşdur.

**4.7.7-ci yarımbənd üzrə (Hüquq-mühafizə orqanlarının və insan alverinə qarşı mübarizə sahəsində fəaliyyət göstərən digər dövlət qurumlarının əməkdaşları, həmçinin ixtisaslaşmış qeyri-hökumət təşkilatlarının nümayəndələri üçün xüsusi tədris kurslarının təşkil edilməsi):**

Cari ilin yanvar ayından etibarən həyata keçirilən və 18 iyul 2022-ci il tarixdə icrası tamamlanan “Miqrasiya Məktəbi-4” layihəsi çərçivəsində 04.06.2022-ci il tarixdə Daxili İşlər Nazirliyinin İnsan alverinə qarşı mübarizə baş idarəsinin və Dövlət Sərhəd Xidmətinin əməkdaşları tərəfindən “İnsan alverinə qarşı mübarizə” və “Miqrant qaçaqçılığı və ona qarşı mübarizə” mövzularında təlimlər keçirilmişdir.

Beynəlxalq Miqrasiya Təşkilatı ilə əməkdaşlıq şəraitində icra olunan “Azərbaycanda Miqrasiya üzrə Regional Təlim Mərkəzinin yaradılmasına dəstək” layihəsi çərçivəsində sözügedən Təlim Mərkəzinin kurikulumuna insan alveri ilə bağlı xüsusi modul daxil edilmişdir və həmin modul üzrə müxtəlif maraqlı tərəflərin (region ölkələrinin dövlət qurumlarının əməkdaşları, qeyri-hökumət təşkilatları, media, özəl sektorun nümayəndələri, gənclər, miqrantlar və s.) bilik və bacarıqlarının artırılması məqsədilə milli və regional səviyyədə mütəmadi olaraq təlimlərin keçirilməsi nəzərdə tutulmuşdur.

Həmçinin, Dövlət Miqrasiya Xidmətinin Təlim-tədris mərkəzinin müvafiq təlim proqramına uyğun olaraq, miqrasiya orqanı işçilərinin peşə hazırlığının və ixtisaslarının

artırılması məqsədilə “İnsan alverinə qarşı mübarizə” mövzusunda ixtisaslaşmış mütəxəssislər tərəfindən təlimlərin bundan sonra da keçirilməsi planlaşdırılır.

**4.8.1-ci yarımbənd üzrə (İnsan alverinə qarşı mübarizədə təbliğat və maarifləndirmə işinin gücləndirilməsi, bu məqsədlə müxtəlif sosial reklamlar, çarxlar, qısametrajlı filmlər çəkilməsi, verilişlərin hazırlanıb nümayiş etdirilməsi, müxtəlif maarifləndirici materiallar hazırlanması, internet informasiya resurslarında yerləşdirilməsi və onlardan istifadənin təşviq edilməsi):**

Hesabat dövrü ərzində Dövlət Miqrasiya Xidməti yanında İctimai Şuranın üzvü olan "Psixososial Reabilitasiya və İnkişaf" İctimai Birliyi tərəfindən “Bakı şəhərində məskunlaşmış əcnəbilərin psixoloji adaptasiyasına və onların cəmiyyətə inteqrasiyasına dəstək” layihəsi çərçivəsində sosioloqlar və psixoloqlar tərəfindən 50 miqrant arasında sorğunun keçirilməsi və onların psixoloji vəziyyətinin dəyərləndirilməsi məqsədilə psixoloji dəstəyə daha çox ehtiyacı olan əcnəbilərin müəyyən edilməsi, həmçinin məsələ ilə bağlı müvafiq elanın Xidmətin rəsmi internet səhifəsində yerləşdirilməsi istiqamətində tədbirlər görülmüşdür.

Eyni zamanda, Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyi ilə “Avrasiya Miqrasiya Təşəbbüsləri Platforması” İctimai Birliyi tərəfindən hazırlanan Azərbaycan Respublikasında olan əcnəbilərin hüquq və vəzifələri, insan alveri riskləri və əcnəbilərin müraciət edəcəkləri yerlər və əlaqə vasitələri haqqında “Azərbaycanda yaşayan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin cəmiyyətə inteqrasiyasına dair” adlı bələdçinin və “Azərbaycanda yaşayan əcnəbilərin hüquq və vəzifələri” adlı bukletlərin hədəf qruplarına paylanılması təmin edilmişdir.

Bununla yanaşı, xarici ölkələrə gedən Azərbaycan Respublikası vətəndaşlarının insan alveri qurbanına və ya insan alverçisinə çevrilməsi risklərinin qarşısının alınması, həmçinin bu məsələ ilə bağlı daha geniş məlumatın əldə olunması üçün Xidmətin rəsmi internet səhifəsində Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin İnsan alverinə qarşı mübarizə baş idarəsinin rəsmi internet səhifəsində yerləşən “Maarifləndirmə” bölməsinə keçid verilmişdir.

**4.8.3-cü yarımbənd üzrə (Məcburi əmək riskləri barədə maarifləndirmə işinin gücləndirilməsi, belə tədbirlərin əməkçi miqrantlar arasında keçirilməsi):**

14 iyun 2022-ci il tarixdə Dövlət Miqrasiya Xidməti yanında İctimai Şuranın sədri tərəfindən Dövlət Miqrasiya Xidmətinin 50 nəfərdən çox əməkdaşı üçün “Miqrasiya proseslərinin idarə olunmasında vətəndaş cəmiyyəti institutlarının rolu” və “Korrupsiyaya qarşı mübarizə və etik davranış qaydaları” mövzularında təlimlər keçirilmişdir.

Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyi ilə “Avrasiya Miqrasiya Təşəbbüsləri Platforması” İctimai Birliyi tərəfindən həyata keçirilən “Azərbaycanda yaşayan əcnəbilərin cəmiyyətə səmərəli inteqrasiyası üçün səylərin səfərbər edilməsi” layihəsi çərçivəsində hazırlanmış 3 növdə bukletlərin (“Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycanda əmək fəaliyyətinə dair”, “Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olmasına dair” və “Əcnəbilərin Azərbaycan cəmiyyətinə inteqrasiyası haqqında faydalı məlumata dair”) hədəf qruplarına paylanılması həyata keçirilmişdir.

Eyni zamanda, 31 may 2022-ci il tarixdə Xidmətin inzibati binasında işəgötürənlərlə keçirilmiş görüşdə əməkçi miqrantların insan alverinin qurbanına çevrilməsi risklərinin qarşısının alınması, məcburi əmək riskləri və qeyri-formal məşğulluğun qarşısının alınması məqsədilə maarifləndirici söhbətlər aparılmışdır.

Həmçinin, hesabat dövrü ərzində Xidmətin regional miqrasiya idarələri tərəfindən bölgələrdə fəaliyyət göstərən işəgötürənlərlə miqrasiya sahəsində hüquqi maarifləndirmə tədbirləri həyata keçirilərkən məcburi əmək riskləri, insan alverinə qarşı mübarizədə qanunvericilik bazası, insan alverinə qarşı mübarizə istiqamətləri, məcburi əmək, qanunsuz miqrasiya barədə məlumatlar verilmişdir.

**4.8.4-cü yarımbənd üzrə (İnsan alveri ilə bağlı keçirilən bütün maarifləndirmə tədbirlərinin və təlimlərin nəticələrinin təşkilatçılar və iştirakçılar tərəfindən qiymətləndirilməsi təcrübəsinin tətbiq edilməsi):**

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti rəisinin 05 mart 2018-ci il tarixli 26 nömrəli əmri ilə təsdiq edilmiş “Azərbaycan Respublikası miqrasiya orqanlarında işçilərin peşə hazırlığının təşkili və qiymətləndirilməsi qaydaları”na uyğun olaraq miqrasiya orqanlarında təlimə cəlb olunmuş təlimçilərin və dinləyicilərin qiymətləndirilməsi aparılır. Burada məqsəd miqrasiya orqanlarında işçilərin potensial imkanlarından istifadə etmək mümkünlüyünün aşkara çıxarılması və peşə hazırlığının yüksəldilməsinə zərurət dərəcəsinin müəyyənləşdirilməsidir.